DOI:10.30546/gdu.5.2025

UOT:37.

# NİTQİN ÖYRƏDİLMƏSİNDƏ KOMMUNİKATİV METODUN YERİ

***dosent Kadiyeva Sevda Əbdülsəməd qızı***
***Azərbaycan Tibb Universiteti***
***seva.kadi@mail.ru***

**Xülasə:** *Kommunikativ bacarıqlara yiyələnmək üçün müəllim aşağıdakı tapşırıqlara müraciət edə bilər: tələbələrin müəllimin qısa suallarına tez cavab verdiyi və ya sualları özləri başlatdıqları reaksiya məşqləri; şəkil əsasında hekayə tərtib etmək; müəllim tərəfindən qeydə alınan və ya təkrarlanan dialoqa qulaq asıb bundan sonra özləri növbə ilə onu yenidən qururlar, bəzən sözləri əvəz edirlər. Bu cür tapşırıqlar kifayət qədər çox ola bilər. Ancaq bəzi tövsiyələr var ki, onlara əməl etmədən hər hansı bir çalışma, tələbələrin hansısa bir fəaliyyəti səmərəsiz ola bilər. Fəaliyyətin uğurlu olması üçün aşağıdakı tövsiyələrə əməl olunması arzuolunandır: dərslərdə həmişə mehribanlıq mühitinin yaradılması; hər dərsə nitqin daxil edilməsi; həmsöhbətin bilik səviyyəsindən kənara çıxılmaması; tələbənin tənqid edilməməsi və sözünün kəsilməməsi.*

**Açar sözləri:** tapşırıq, nitq, söz, təhsil, tədris, bacarıq, fəaliyyət, dialoq, mətn
**Keywords:** task, speech, word, education, teaching, skill, activity, dialogue, text
**Ключевые слова:** задание, речь, слово, образование, обучение, навык, деятельность, диалог, текст

**Giriş.** Son illərdə təhsil almaq üçün Azərbaycana gələn əcnəbi tələbələrin sayının artmasını müşahidə edirik, bu da təhsilverənlərdən bilik və bacarıqlarının artırılmasını tələb edir, əcnəbi tələbələrə Azərbaycan dilinin tədrisi üçün müəyyən vəsaitlərin hazırlanması, yeni tədris metodların tətbiqi üçün zərurət yaradır. Bu sayədə təhsilimizin və Azərbaycanın xarici ölkələrdə tanınması, tədris sistemimizin inkişafı və yenilənməsi üçün yeni imkanlar yaranır.

Metodologiyanın inkişafının hazırkı mərhələsi öyrənmənin optimallaşdırılması problemini ən yaxşı şəkildə həll etmək üçün dil və öyrənmə metodlarını bir-birinə uyğunlaşdırmaq üçün müxtəlif tədris metodlarına (induktiv və deduktiv) yönəlmə ilə xarakterizə olunur.Müasir metodologiyada yeni (ikinci) dilin öyrədilməsi vasitəsi kimi kommunikativ metoda xüsusi yer verilir. Danışıq fəaliyyəti kimi nitqin özünəməxsus xüsusiyyətləri vardır. Spesifik xüsusiyyətlər motivasiya, fəallıq, məqsədyönlülük, fəaliyyətlə əlaqə, təfəkkürün kommunikativ funksiyası ilə əlaqə, şəxsiyyətlə əlaqə, situasiya, müstəqillik, temp və s. Kommunikativlik bir metodologiya kateqoriyası olaraq nitq fəaliyyətinin digər məzmun xətləri - dinləmə, oxuma, yazma üçün tədris yeni metodlarının yaradılmasına əsas ola bilər. Çünki nitqdə baş verən dəyişiklik və yeniliklər müəllimlərdən bu dəyişikliklərə uyğun metodların yaradılması və öyrədilməsini tələb edir. Bununla belə, bu metodun köməyi ilə həll olunan əsas vəzifə şifahi nitqin bilik və bacarıqlarını mənimsəməkdir, digər məqsədlərə nail olmaq isə köməkçi xarakter daşıyır.

Qeyd edildiyi kimi, dilin praktiki mənimsənilməsi nitq fəaliyyətinin dinləmə, danışma, oxuma, yazma kimi növlərində nitq bacarıqlarının mənimsənilməsi zərurəti daxildir. Azərbaycan dilinin öyrənilməsinin ilk addımlarından biri də əcnəbi tələbələrə şifahi və yazılı nitq bacarıq və vərdişləri kompleksinin öyrədilməsidir. Buna isə ancaq aydın məşqlər sistemi, situasiya oyunlar, təlim və təcrübə üçün dialoqların qurulması ilə nail olmaq mümkündür.

Tələbələr arasında ən təsirli və həyata keçirilməsində çox maraq doğuran məşq növləri fşfğıdakılardır:

DOI:10.30546/gdu.5.2025

1. "Aşağıdakı suallara cavab verin." Bu cür məşqləri yerinə yetirərkən təkcə aktiv nitq fəaliyyəti deyil, həm də intensiv düşüncə prosesləri stimullaşdırılır.

2. "Dostunuzdan soruşun...", "Müəyyən lüğətdən, feilin zamanlarından, müəyyən sual sözlərindən istifadə edərək lövhədə duran tələbəyə sual verin" və s.

3. "Təsəvvür edin ki, siz oxu zalındasınız. Əgər sizdən bir iş (nəyisə etmək, nəyisə ötürmək) xahiş olunsa, nə deyərdiniz?" Və ya "Nə üçün bir şey edə bilməyəcəyinizi izah edin (harasa get, dəvəti qəbul et, dərsliyi ver və s.).

Bu cür məşqlərdə qrup həyatının praktiki ifadələrindən istifadə etmək bacarığını yoxlamaq asandır: "Qrup yoldaşınız çox sakit oxuyur. Eşitmə qabiliyyətiniz zəifdir. Oxucuya nə deyəcəksiniz?" və ya "Sən dərsə gecikmisən. Müəllimə nə deməlisən?"

4. "Bu obyektləri (hadisələri, şəxsləri və s.) müqayisə edin" və ya "Eşitdikləriniz haqqında öz fikrinizi bildirin. Eşitdiklərinizlə razılaşın və ya razılaşmayın, ifadənizi motivasiya edin."

Başlanğıc qruplarda yuxarıda göstərilən yaradıcı məşqlərin sistemli şəkildə yerinə yetirilməsi situasiyalı nitq təcrübəsinin imkanlarını genişləndirir və güclü praktiki nitq bacarıqlarının inkişafına kömək edir.

Didaktik və rollu oyunlar ilkin mərhələdə dilin öyrədilməsi vasitələrindən biri kimi çıxış edir. Tələbələrin maraq və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi vasitəsi kimi didaktik və rollu oyunlar əcnəbi dil qruplarında təlimin ilkin mərhələsində Azərbaycan dilinin tədrisində səmərəli metod və üsullardan biridir. Diqqətlə düşünülmüş və yaxşı həyata keçirilən oyun dil materialının tətbiqinə və möhkəmləndirilməsinə, müxtəlif nitq fəaliyyətlərində (dinləmə, danışma, oxuma, yazma) müvafiq bilik və bacarıqların formalaşmasına kömək edir. Dərsdə oyunların əsas məqsədi fonetikanın, lüğətin, qrammatikanın sürətli və möhkəm mənimsənilməsi, şifahi nitqin inkişaf etdirilməsi üçün edilən məşqlər (həm hazırlıqlı, həm də spontan) və tərcümədir. Belə oyunlar təlimin müxtəlif mərhələlərində istifadə oluna bilər. Təlimin birinci və ikinci pillələrində fonetika, lüğət və qrammatika üzrə oyunlar keçirilməlidir, bu oyunlarda səslərin, sözlərin, cümlələrin tələffüz bacarıqlarının məşq edilməsi, lüğətin toplanması və ən çox istifadə olunan nitq modellərinin mənimsənilməsi; üçüncüsü, əsas diqqət nitqin inkişafına və toplanmış lüğətin keçilmiş qrammatik strukturlarda praktiki istifadəsinə verilir.

Bütün oyunları quruluşuna görə qruplara bölmək olar. Müəyyən bir oyunun seçimi dərsin məqsədləri, məzmunu, mərhələsi ilə müəyyən edilir və auditoriyanın çıxışı, tələbələrin reaksiyası, maneələri və onların hazırlıq səviyyəsi əsasında müəllim tərəfindən müəyyən edilir. Didaktik və rollu oyunlar müxtəlif linqvistik hadisələri başa düşməyə kömək edən oyun situasiyaları yaratmaq üçün qeyri-məhdud imkanları ehtiva edir. Buna görə də, onları tələbələrin idrak fəaliyyətinə fəal təsir göstərən digər texnika və vasitələrlə bərabər tutmaq olar. Metodoloji baxımdan dil öyrətməkdə rollu oyunun böyük faydası var. Rollu oyun sabit didaktik quruluşa (təhsil və peşə-pedaqoji məqsədlərə) malik olan sosial-psixoloji təlimdir. Metodologiyada rollu oyunun didaktik strukturu dedikdə onun komponentlərinin - məqsədlərin, məzmunun, rolların, sosial-psixoloji və didaktik şəraitin, mərhələlərin məcmusu başa düşülür. Birinci mərhələ rollu oyunun hazırlanması, ikincisi oyunun aparılması, üçüncüsü isə oyunun nəticələrinin kollektiv müzakirəsidir.

Dialoji nitq üzərində işləyərkən müxtəlif təlim tapşırıqları yerinə yetirilir ki, onların məqsədi leksik vahidləri, qrammatik materialı, şablon ifadələri bacarıqla işlətmək və təbii ki, konkret situasiyada dialoq aparmaq bacarığını inkişaf etdirməkdir. Rollu oyunun tələbləri bunlardır: a) tələbələrin dil bilik səviyyəsinə uyğun olmalıdır; b) nitqin stimulaşdırılmasını ehtiva etməlidir; c) ipucu ehtiva etməlidir; d) maraq və təxəyyülünü oyatmaq, həyat təcrübəsini nəzərə almaq.

DOI:10.30546/gdu.5.2025

Sözlərin və yığılmış leksik materialın öyrənilməsi prosesi dilin tədrisində böyük rol oynayır. Hər hansı bir dili öyrənərkən sözlərin əzbərlənməsi prosesində təkrarın rolu hər kəsə yaxşı məlumdur. Sözlərin yaxşı öyrədilməsinə və möhkəmləndirilməsinə baxmayaraq, müəyyən müddətdən sonra əlavə möhkəmləndirmə aparılmasa tələbələr tərəfindən öyrənilən leksik baza unudulur.

Bu sözlərin öyrənilməsi prosesinin xüsusiyyətləri ilə izah olunur. Sözlərin yalnız izah və möhkəmlənməsi nəticəsində onlar hələ də "uzunmüddətli yaddaş" deyilən sferaya düşmür və müəyyən müddətdən sonra unudulur. Və yalnız sözlərin sonrakı düzgün təşkil edilmiş təkrarının köməyi ilə kifayət qədər güclü müvəqqəti əlaqələrin formalaşmasına, sözlərin nitq fəaliyyətində və müəyyən vaxt intervallarında sərbəst istifadə oluna biləcək dərəcədə yadda saxlanmasına nail olmaq olar. Əvvəllər öyrənilmiş leksik material həm oxu, həm də qrammatika dərslərində müxtəlif leksik məşqlərin yerinə yetirilməsi prosesində təkrarlanmalıdır. Mətnləri seçərkən, onların lüğəvi təkrar imkanları nəzərə alınmalıdır, yəni məşqlərin yaddaşda təkrarlanan lüğətin bərpasına və nitq fəaliyyətində istifadəsi üçün zəruri olan söz ehtiyatı ilə əməliyyatlara nə qədər töhfə verdiyini nəzərə almaq lazımdır.

**Nəticə.** Beləliklə, sözləri təkrarlamaq üçün ən təsirli məşqləri müəyyən etmək üçün əvvəllər öyrənilmiş aktiv lüğəti təkrarlamaq üçün aşağıdakı təlim sistemlərini qeyd etmək lazımdır:

1. Tələbələrin yaddaşında leksik materialın bərpasına və onun nitqin konkret mövzusu ilə əlaqələndirilməsinə yönəlmiş məşqlər. Bu, müəllimin tapşırığına uyğun olaraq tələbələr tərəfindən əvvəllər öyrənilmiş sözlərin qruplaşdırılması ola bilər;

2. Tələbələrə əvvəllər öyrənilmiş leksik materialdan söz, cümlə daxilində istifadə etmək bacarığını təmin edən tapşırıqlar. Bu məşqlərə aşağıdakılar daxil ola bilər: təkrar söz ehtiyatı ilə ifadələr və cümlələr qurmaq, təkrar söz ehtiyatını cümlələrlə əvəz etmək, təkrar sözlər olan cümlələri Azərbaycan dilindən ingilis dilinə və ingilis dilindən Azərbaycan dilinə tərcümə etmək (şifahi və yazılı);

3. Tələbələrə əvvəllər öyrənilmiş lüğətdən real ünsiyyət aktına yaxın şəraitdə istifadə etmək imkanı verən məşqlər. Məsələn, lüğətin təkrarı prosesində tələbələrə aşağıdakı tapşırıqlar verilə bilər: verilmiş situasiyaya uyğun dialoqu tamamlamaq, dialoqda təkrarlanan sözlərdən istifadə etmək; müəyyən bir vəziyyətlə bağlı dialoqda əvvəlki dərslərdə öyrənilmiş sözlərdən istifadə etmək; verilmiş situasiya üzrə monoloqda lüğət ehtiyatından istifadə etmək və s.

Lüğətin təkrarı üsulları leksik materialın özünün təbiətindən, qrupun şəraitindən, müəllimin lüğətin təkrarı üçün ayırdığı vaxtdan və s. asılı olaraq müəyyən dərəcədə dəyişə bilər. Bununla belə, bütün hallarda lüğətin təkrarı üsulları tələbələrin zehni və nitq fəaliyyətini maksimum dərəcədə aktivləşdirməli və ilk növbədə söz ehtiyatına, bütün təkrarlama metodlarına əsaslanan müxtəlifliyə əsaslanmalıdır. Tələbələr tərəfindən həyata keçirilən müxtəlif nitq fəaliyyətləri onların dili daha yaxşı qavramasına kömək edir. Danışıq nitqinin qavranılması və dərk edilməsinin özü mürəkkəb zehni fəaliyyət, intensiv yaddaş işi ilə müşayiət olunur. Dil formasının müvəffəqiyyətlə qavranılması və nitqin mənasını başa düşməsi üçün bacarıqları inkişaf etdirmək, ötürülən məlumatın mənası haqqında düşünmək vərdişini formalaşdırmaq və qarşıya qoyulan məqsəddən asılı olaraq diqqəti yönləndirmək lazımdır.

DOI:10.30546/gdu.5.2025

### *Ədəbiyyat*

1. Бабанский Ю.К. Выбор методов обучения в средней школе/ Ю.К. Бабанский. – М.: Политиздат, 1981. -176 с.
2. Наумова О.В. (Институт языкознания РАН) Развитие методики преподавания иностранных языков: обзор основных направлений.с.153 (https://iling-ran.ru/library/sborniki/for_lang/2014_06/7.pdf)

## О РОЛИ КОММУНИКАТИВНОГО МЕТОДА В ОБУЧЕНИИ РЕЧИ

***доцент Кадиева Севда Абдулсамед кызы***

***Резюме***

Для развития коммуникативных навыков преподаватель может прибегнуть к следующим заданиям: упражнения на реакцию, в которых студенты быстро отвечают на короткие вопросы преподавателя или сами задают вопросы; составление рассказа по картинке; прослушивание диалога, записанного или повторенного преподавателем, с последующим его самостоятельным воспроизведением. Таких заданий может быть довольно много. Однако существуют рекомендации, без соблюдения которых любая работа, любая деятельность студентов может оказаться неэффективной. Для успешной деятельности желательно соблюдать следующие рекомендации: всегда создавать на занятиях атмосферу дружелюбия; включать речевую деятельность в каждое занятие; не выходить за рамки уровня знаний студентов; не критиковать и не перебивать их.

## THE PLACE OF THE COMMUNICATIVE METHOD IN TEACHING SPEECH

***Associate Professor Kadiyeva Sevda Abdulsamad***

***Summary***

To master communicative skills, the teacher can resort to the following tasks: reaction exercises, in which students quickly answer the teacher's short questions or initiate questions themselves; composing a story based on a picture; listening to a dialogue recorded or repeated by the teacher and then reconstructing it themselves, sometimes replacing words. There can be quite a lot of such tasks. However, there are some recommendations, without following which any work, any activity of students may be ineffective. For the activity to be successful, it is desirable to follow the following recommendations: always create an atmosphere of friendliness in the lessons; include speech in each lesson; do not go beyond the level of knowledge of the interlocutor; do not criticize and do not interrupt the student.

***Rəyçi: prof.N.H.Hacıyeva***
***ATU-nun Azərbaycan dili kafedrasının 4.07.2025-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olma tarixi 16 sentyabr 2025-ci il***